# "Şuşa Zəfəri doğum günümə təsadüf etmişdi"

## Qəhrəman gizir döyüş xatirələrini bölüşür

"Füzulinin Qaraxanbəyli kəndində mühasirəyə düşmüşdük. Düşmən yüksəklikdə mövqe tutmuşdu, biz isə açıq sahədə idik. Bir neçə dəfə minaatanlardan bizim tərəfə atəş açdılar. Orada işğaldan əvvəl həmyerlilərimizin dəfn olunduğu qəbiristanlıq var idi. Yeganə çarə qəbirlər arasında gizlənərək düşmənin atdığı güllə və mərmilərdən müdafiə olunmaq idi. Biz orada təkcə müdafiə olunmadıq, həm də düşməni çaşbaş salıb, qurduqları pusqunu özlərinə qarşı istifadə etdik. Bir hissəmiz düşmənin başını qatdı, atəş hədəfini üzərinə çəkdi, digər hissəmiz isə arxadan sızma əməliyyatı həyata keçirərək düşmənin mövqe tutduğu yüksəkliyi ələ keçirdi. Düşmənin xeyli sayda canlı qüvvəsi məhv edildi, biz isə mühasirəni itkisiz və uğurla yardıq. Bu, illərlə keçdiyimiz ağır təlimlərin məntiqi nəticəsi idi".



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin mənsubu, gizir Samir Dünyamalıyev söyləyib.

2009-cu ildən Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində qrup komandiri kimi xidmət edən S.Dünyamalıyev Vətən müharibəsinin ilk günündən Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşlərə qatılıb. O, torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda Füzuli, Xocavəndin Hadrut qəsəbəsi və Şuşa istiqamətlərində aparılan hərbi əməliyyatların fəal iştirakçısı olub.

Haqq savaşımızın unudulmaz məqamlarını bölüşən S.Dünyamalıyev söhbətinə belə davam edib: "Hadrut coğrafi baxımdan çox mürəkkəb relyefdə yerləşir. Dörd tərəfdən dağlar və meşələrlə əhatə olunub, həm də strateji əhəmiyyətli ərazidir. Biz Hadrutu düşməndən təmizləsək də, onlar dəfələrlə daha böyük qüvvə ilə irəli atılaraq qəsəbəni geri qaytarmağa çalışdılar. Lakin hər dəfə daha böyük itki verərək geri çəkilməyə məcbur oldular. Onların hücumları, sadəcə, cəhd olaraq qaldı".

Şuşa istiqamətində gedən döyüşlərdə iştirakından danışan gizir bildirib ki, onun olduğu qrupa digər qrupların Şuşaya daha rahat daxil olmasını təmin etmək üçün Laçın dəhlizindən gələn yolu tutmaq tapşırığı verilmişdi: "Noyabrın 6-sı günorta saatları idi. Biz Laçın-Şuşa istiqamətində qayalıqlarla əhatə olunmuş dərə yatağında hücuma keçmək üçün son hazırlıq işlərini görürdük. Elə bir sükut hökm sürürdü ki, milçəyin vızıltısı belə eşidilirdi. Birdən sakitliyi olduğumuz yerə atılan top mərmisi pozdu. Əvvəlcə yaralandığımı hiss etmədim. Qayanın arxasına keçib mövqe tutdum, bu zaman sol ayağımın hərəkətsiz qaldığını gördüm. Elə bildim ki, ayağımı itirmişəm. Əlimlə yoxlayanda isti qan axdığını hiss etdim. Mən yaralanmışdım, həm iki qəlpə, həm də güllə yarası almışdım. Ətrafda bir neçə yaralımız və şəhidlərimiz var idi. Təxliyə mümkün deyildi. Yalnız axşam, hava qaralandan sonra bizi dumanın köməyi ilə təxliyə etdilər. Əvvəlcə Hadruta, sonra vəziyyətim ağır olduğuna görə Füzuli Rayon Mərkəzi Xəstəxanasına aparıldım. Orada əməliyyat olundum... Noyabrın 8-i idi. Artıq palataya köçürülmüşdüm. Birdən xəstəxanada səs-küy qalxdı. Hər kəs sevinirdi, göz yaşları içərisində hamı bir-birini qucaqlayıb təbrik edirdi. Tibbi heyət bizə "Şuşa alındı!", - deyə xəbər verdi. O an sevinc, kədər və qürur bir-birinə qarışmışdı. Bir gözümüz gülürdü, bir gözümüz isə bu yolda şəhid olan qəhrəmanlarımız üçün ağlayırdı. Otuz ildən sonra biz, nəhayət Zəfəri, minlərlə döyüşçünün qanı və canı bahasına əldə etmişdik".

Qəhrəman gizir deyir: "Şuşa Zəfəri mənim doğum günümə təsadüf etmişdi. Ağrılar, yaralar içərisində olsam da, həyatımın ən yaddaqalan ad gününü keçirdim, bir döyüşçü kimi ən böyük hədiyyəmi aldım. Həm sevinir, həm də kədərlənirdim. Çünki mən xəstəxanada ikən silahdaşlarım hələ də güllə altında idilər. Döyüş meydanında olmamaq mənə ağır gəlirdi. Müharibə itkisiz, Zəfər isə bədəlsiz olmur. Biz döyüşə gedəndə xalqımız, torpaqlarımız, namusumuz üçün hər şeyə hazır idik. Biz alnımızdakı ləkəni öz canımız, qanımız bahasına da olsa təmizləməli idik və bunu etdik.

Savaş meydanında keçən hər saniyə, hər dəqiqə bir xatirədir. Zəfər yürüşünün iştirakçısı olmaq mənim üçün böyük qürurdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu!"

Hazırda Samir Dünyamalıyev Şabran rayonunun Çölquşçu kənd tam orta məktəbində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edir. O, 11 illik xidmət dövründə qazandığı bilik və döyüş təcrübəsini şagirdlərinə ötürür, həmçinin onların vətənpərvərlik ruhunda tərbiyə olunması üçün qəhrəmanların şərəfli həyat və döyüş yolunu təbliğ edir.

Vətən müharibəsi qazisi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Azərbaycan. - 2025.- 31 oktyabr (№233).- S.12.